**“Ağıllı kənd” (Smart Village) və “ağıllı şəhər” (Smart City) konseptləri Avropa üçün yeni inkişaf strategiyası kimi getdikcə bütün bölgəyə yayılır. Bu barədə yazılan məqalələr, aparılan araşdırmalar çox olsa da, bəzən konsepsiyanın bizə nələri vəd etdiyini tam olaraq başa düşmürük. Məhz bu səbəbdən konseptlə bağlı danışmazdan əvvəl, onun respublikamıza və ümumilikdə dünyaya hansı üstünlükləri qazandıracığını izah etmək lazımdır.**

işğaldan azad edilmiş ərazilərimizdə də icra edilir.

Bu layihənin sadə şəkildə başa düşülməsi üçün onu hədəf qruplar kimi şəhərləri, kəndləri, icmaları seçən, regionda yaşayış və iş tərzini təkmilləşdirən, informasiya və kommunikasiya texnologiyalarını (İKT) yayan və daha önəmlisi, davamlılığa nail olan tətbiqlər və texnologiyalar kimi təsvir etmək lazımdır. Məlum olduğu kimi, Azərbaycan bu yanaşmadan istifadə etməyə başlayan ölkədir. Təbiidir ki, Vətən müharibəsində qazanılan qələbə azad edilən ərazilərdə ölkəmizin qarşısına yeni vəzifələr qoyub. Bu vəzifələr əsasən iki böyük amalı özündə birləşdirir: kütləvi yenidənqurma və əhalinin köçürülməsi. Bildiyiniz kimi, hazırda Qarabağın bərpası prosesi fasiləsiz davam edir.

**(ardı 4-cü səhifədə)**

# “Ağıllı kənd” və şəhərlər regionun simasını tamamilə dəyişəcək

Çox vaxt ekspertlər ağıllılığı informasiya texnologiyaları infrastrukturunun keyfiyyəti və ondan istifadə etmək bacarığı ilə əlaqələndirirlər. Alternativ bir perspektiv isə iddia edir ki, ağıllılıq yerli əhalinin rifahına töhfə vermək üçün həm dövlətin, həm də bazarın zəif tərəflərini aradan qaldıran və ya kollektiv vasitələrlə fövqəladə imkanlardan istifadə edən, öz-özünə təşkil edilmiş, aşağıdan-yuxarıya icma fəaliyyəti ilə əlaqəli bir fenomen kimi daha yaxşı başa düşülə bilər. Bu mənada nümunə kimi Şotlandiyanı qeyd etmək olar. Şotlandiyada “ağıllı kənd” arxitekturaları ən aşağı səviyyədən yuxarı icmaya qədər birgə fəaliyyəti dəstəkləmək üçün tərtib edilib. Təbii ki, əvvəlcə konsepsiyanın nədən ibarət olduğunu anlamaq gərəkdir. Sevindirici haldır ki, “ağıllı şəhər” və “ağıllı kənd” layihələri



# “Ağıllı kənd” və şəhərlər regionun simasını tamamilə dəyişəcək



**(əvvəli 1-ci səhifədə)**

Görülən işlərin miqyası o qədər böyükdür ki, hətta dünya təcrübəsində buna bənzərinə rast gəlmək mümkün deyil. Buna görə də xarici media nümayəndələri gördükləri mənzərə qarşısında heyrətlənir, hətta ən təcrübəli, güclü dövlətlərdə də bu qədər qısa zamanda belə böyük fəaliyyətin görülməsinə şahid olmadıqlarını dilə gətirirlər. Əlbəttə, bölgəyə pərakəndə şəkildə yüz minlərlə mina səpələndiyini və işlərin davam etməsi üçün əvvəl minatəmizləmə işləri aparılmalı olduğunu nəzərə alsaq, o zaman bərpa prosesinin nə qədər böyük əmək, maddi resurs və zaman tələb etdiyini daha yaxşı başa düşmək olar.

İşğaldan azad edilən bölgələrdə işlərin daha məqsədəuyğun aparılması üçün dünya təcrübəsində yeni və bir o qədər uğurlu olan “ağıllı kənd” və “ağıllı şəhər” layihələri icra edilir. Bu mənada Prezident İlham Əliyev 2021-ci ilin yanvar ayında Ermənistanın işğalından azad edilmiş ərazilərin “ağıllı kənd” və “ağıllı şəhər” konsepsiyası üzrə bərpa ediləcəyini bildirdi. Bundan başqa, dövlət başçısı konsepsiyanın hazırlanması ilə bağlı sərəncam imzaladı, işin icrası üçün müxtəlif nazirlikləri təmsil edən işçi qrupu yaradıldı.

“Ağıllı kənd” konsepsiyası informasiya-kommunikasiya texnologiyaları ilə kənd təsərrüfatı istehsalında məhsuldarlığın artırılması, miqrasiya və işsizliyin qarşısının alınması, rəqəmsallaşmanın digər kəndlərə də yayılmasını təmin edir. Həmçinin dünyanın ən son kənd təsərrüfatı texnologiyalarından istifadə kimi bir çox önəmli və gələcək üçün perspektiv vəd edən məsələni reallaşdırır.

Ölkəmizin şəhər və kəndlərində əhaliyə göstərilən xidmətin keyfiyyətinin, təhlükəsizliyin, səmərəliliyin artırılması, bu artımın və keyfiyyətin tətbiqi zamanı müasir texnologiyalardan istifadə edilməsi, eləcə də həmin xidmətlər üzrə mövcud resursların effektiv istifadəsi və idarə olunmasını təmin etmək bu konsepsiyanın əsas inkişaf prioritetlərindəndir.

Xüsusilə qeyd etmək lazımdır ki, “ağıllı kənd” layihəsi müasir telekommunikasiya, sensor, “böyükhəcmli məlumatlar” (Big Data) və digər rəqəmsal və süni intellekt texnologiyalarınının, habelə innovasiya və məlumatların səmərəli istifadəsini təmin edir, iqtisadiyyatımızın ümumi dövriyyəsində yeni və perspektivli gəlir imkanları yaradır. Yuxarıda adı çəkilən texnologiyaların bir-birilə vahid sistem şəklində, birgə fəaliyyət göstərməsi ilə rəqəmsal məlumatların formalaşdırılması, yığılması, saxlanılması, işlənilməsi və analitik təhlillər əsasında qərarvermə və idarəetmə keyfiyyətinin yüksəldilməsi səmərəli, həmçinin yararlı xidmətlərin göstərilməsi üçün geniş imkanlar açır. Bütün bu imkanlar şəhər və kəndlərdə göstərilən xidmətlərin növbəti inkişaf mərhələsində funksional olan konsepsiyaya keçid üçün əlverişli iqtisadi mühit formalaşdırır.

Bu layihələr əsasında təyin edilən kəndlərdə müasir tipli məktəb, bağça, poliklinika və elektron idarəetmə mərkəzləri tikilir, turizm infrastrukturu yaradılır. Layihə çərçivəsində tikintisi reallaşdırılan bütün yaşayış evləri, sosial obyektlər, inzibati və ictimai iaşə binaları, kənd təsərrüfatı məhsullarının emalı və istehsalı prosesi alternativ enerji mənbələri ilə təmin edilir. Bu məqamda xüsusi vurğulanmalı məsələlərdən biri də odur ki, “ağıllı kənd” konsepsiyası alternativ enerji mənbələrindən istifadəni çoxaltmaqla, həm də ölkə üzrə qeyri-neft sektorunun inkişafına vəsilə olacaq. Bu isə o deməkdir ki, Azərbaycanda həyata keçirilən iqtisadi-sosial islahatlar vahid bir sistem şəklində ölkənin inkişafı və xalqın rıfahına hesablanıb.

Ölkəmizdə həyata keçirilən bu layihələr qlobal arenada da yüksək qiymətləndirilir. Yeri gəlmişkən, bugünlərdə Prezident İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan Zəngilan rayonunun Ağalı kəndində həyata keçirilən “ağıllı kənd” layihəsi ilə tanış olublar. Qeyd edək ki, həmin layihə üzrə 110 hektardan çox ərazidə tikinti işləri aparılır. Burada 200 fərdi ekoloji evin, ikimərtəbəli 4 qeyri-yaşayış binasının, 360 şagirdlik məktəb və 60 yerlik uşaq bağçasının inşası sürətlə davam etdirilir, piyada və velosiped yolları çəkilir. Layihə çərçivəsində kənd təsərrüfatının təşkili və inkişafı ilə bağlı da bir sıra işlər görülür.

Qardaş ölkənin lideri Rəcəb Tayyib Ərdoğan İstanbulda keçirilən Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının dövlət başçılarının VIII Zirvə toplantısındakı çıxışı zamanı da Azərbaycanda icra edilən “ağıllı kənd” konsepsiyasından da bəhs etdi. Bildirdi ki, qarşıdan gələn müddətdə şəhər və kəndlərimizi yeni texnologiyalar və yenilikçi yanaşmalardan istifadə edərək “ağıllı kənd”lərə, “ağıllı şəhər”lərə çevirməliyik: “Yaşıl böyümələrə yönələn ortaq layihələrə birgə imza atmalıyıq. “Ağıllı kənd” sahəsində işğaldan azad edilən Zəngilanda başladılan işlər təqdirəlayiqdir”.

Qeyd etdiyimiz kimi, hazırda Zəngilan rayonunun Ağalı kəndində konsepsiya üzrə inşaat işləri davam etdirilir. Ümid edirik ki, bu ənənə uğurlu şəkildə davam etdiriləcək və yaxın zamanda respublikamızın digər bölgələrində onun də tətbiqinə başlanılacaq.

**İmran ƏLİYEV,**
**“Xalq qəzeti”**